**Bakı Xəbər**. - 2024. - 24-26 fevral. - № 36. - S. 12.

# Ermənilər Oxçuçay hövzəsində 1906-cı il soyqırımını belə törətdi...

**Qismət Yunusoğlu,**
Bakı Dövlət Universitetinin müəllimi

**Zəngəzur qəzasının əski qəryələrinin və kökənli Türk-Müsəlman qövmünün 1906-cı il ərzində soyqırımı iki xüsusda amansız faciəvi miqyas almışdır-hay kilsəsinin mənfur niyyətlərinə uyğun olaraq 1895-1905-ci illərdə "Qnçak" və "Daşnakstyun" quldur dəstələri tərəfindən Osmanlı Türkiyəsində törədilən əhatəvi işğal-qətliamlara görə və 1907-1908-ci illərdə çar Rusiyasında nəzərdə tutulan inqilabi təbəddülatlar timsalında hay-daşnak və rus-bolşevik qüvvələri ilə birlikdə rəvac verdikləri qanlı-qadalı fəlakətlərinin amansızlığı və geniş əraziləri əhatə etməsi ilə...**

Naxçıvan və Qarabağ mahalları arasında yerləşən Araz, Mehri və Oxçuçay çayları yataqlarını əhatə edən dağlıq silsilə, dağlararası vadilər, yaylalar və çaykənarı düzən sahələr olmaqla, ümumilikdə Zəngəzur mahalında hay kilsəsi, onun silahlı quldur dəstələrinin mütəşəkkil basqınları, Səfəvi xanədanlığının əlehinə açıq xəyanətkar hücumları XVIII əsrin 20-ci illərindən etibarən geniş vüsət almışdır (eləcə də, David gədə (1669-1728) və Mxitar gədə (1672-1730) başda olmaqla). Mahalın Qapan şəhərindən olan Nübarlar ailəsi bu iğtişaşlarda fəal fəaliyyət göstərdiyindən bu şərəfsiz nəslin nümayəndələri/zinagər törəmələri artıq XIX əsrin sonu-XX əsrin əvvəllərində də bəd əməllərindən qalmamış, əksinə daha da geniş coğrafiyada (Osmanlı Türkiyəsi, Cənubi Azərbaycan, Çöllər diyarı, Türküstan, Yaxın Şərq...) xəbis əməllərini artırmışlar.

XX əsrin başlanğıcında (15 aprel 1906-cı ildə) hayların/ibtidai insan sürüsünün baş keşişi I Mkrtiç Xrimyanın (1820-1907) bəd-duası ilə mürtəce əməlləri pərdələnərək bu törəmənin üzvü Poqos Nübaryan (1851-1930), Ervand Aqatunyan (1860-1935), Yaqub Arutyun (1842-1919), Nazaret Taqavaryan və başqa daşnaklar tərəfindən Qahirə şəhərində "Ümumerməni Xeyriyyə Cəmiyyəti" adında əslində mürtəce bir qurum yaradılmışdır. Onun fəaliyyət dairəsinə həm də Türk-Müsəlman dünyasına qarşı dağıdıcı təxribatları, silahlı üsyanları, dövlət əlehinə çevrilişləri...maliyyələşdirmək, hərəkatın silah-sursat təchizatını təmin etmək və idarəedilməsini həyata keçirmək daxil olmuşdur. Rus jurnalisti, publisisti, tarix üzrə professor S.S.Oldenburq (1888-1940) "İmperator II Nikolayın hakimiyyəti" əsərində (1941) qeyd etmişdir ki, M.Xrimyan və onun tərəfdarları nəinki Osmanlı Türkiyəsi, həm də Rusiya üçün təhlükəli olmuşlar.

Bu hay kilsəsi və daşnak qruplaşmasının hədəfində 1906-cı il soyqırım faciələrinin coğrafi məkanı... Zəngəzur bölgəsi əsas yer tutmuşdur....

Ona görədə 1890-1906-ci illər ərzində Mehri nahiyəsinə edilən basqınlar, amansız hücumlar Osmanlı Türkiyəsinin Van, Cənubi Azərbaycanın Urmiya vilayətlərində formalaşmış hay-daşnak dəstələri (özlərini "fədainlər" adlandıranlar) tərəfindən aravermədən davamlı olmuşdur. Onların silah-sursat təchizatı, hərbi təlimlərinin keçirilməsinin təşkilində, muzdlu dəstələrdən istifadə olunmasında... xərclərin xeyli hissəsini o cümlədən ən zəngin iş adamı, "Türkiş OYL" neft şirkətinin prezidenti Q.S.Gülbenkyan (1869-1955) ödəmişdir.

Şimali Qafqaz bölgəsindən isə göstərilən təminat A.M.Şaqrikyan (1860-1915) tərəfindən icra edilmişdir.

Haşiyə. İstanbul şəhərində ali hüquq təhsilli, hay silahlı müqavimət hərakatının fəal üzvlərindən biri olan Arutyun Şaqrukyan "Atom" (hayca "Nitra") siyasi-hərbi təxəllüsü daşımaqla, Osmanlı Türkiyəsində hay mənşəli siyasi dustaqların müdafiəçisi olub. 1897-ci ildən etibarən isə Abşeron yarımadasında əksər neft yataqlarının, bu sahədə xammalın istehsalı və xarici bazarlara çıxarılmasına nəzarət edən A.İ.Mantaşyanın (1842-1911, Tiflis şəhərində mal-mülk, Bakı şəhərində neft sənayesi və ticarəti cəmiyyətinin sədri, 1881-ci ildən fəaliyyət göstərən "Qafqaz erməni Xeyriyyə cəmiyyəti"nin vitse-prezidenti) şirkətində hüquqşünas kimi fəaliyyət göstərmişdir...

1906-cı ilin başlanğıcında Zəngəzur bölgəsinin Mehri dağlıq silsiləsini əhatə edən Nüvədi, Əkərək/Həyərək, Gərçivan, Maralzəmi, Əlidərəsi, Tuğut, Lök, Buğakər, Mərziyid, Löhvaz...kəndlərində, Oxçuçay çayı hövzəsinin Qapan nahiyəsinə aid Gığı, Baharlı, Atqız, Tatlı, Şəhərcik, Qatar... yaşayış məntəqələrində hay-daşnak və rus-bolşevik silahlı/nizami birləşmələrinin hücumları geniş miqyas kəsb etmiş və amansızlıqları ilə fərqlənmişdir. Bölgəyə güclü hücumlar əsasən Cənubi Azərbaycandan Naxçıvana adlamaqla və Ordubad nahiyəsinin Kilid kəndi ilə Qırxcavan kəndi arasındakı Zərəni yerindən, Soyuq dağın cənuba uzanan ətəklərindən, hamar düzən ərazilərdəndən, Araz çayının sol yatağı boyunca,

alçaq dağətəyi düzəngahlardan keçib Mehri çayı və dağlıq silsiləsi hövzəsindəki yaşayış məntəqələrinə yönəlmişdir. Hay-daşnak quldurlarının dəstələrində 2 mindən çox silahlı olmuşdur. Bu yerlər tarixən örüş-biçənək, əkin/əkərək yerləri olduğundan V əsrdə salınmış yaşayış məntəqəsinin də adı Əkərək olub, 1940-cı illərdə hay kilsə bu orotoponimi-"Aqarak" adlandırıb, "Dərəzəmi yeri"ndə zəngin mis-molibden yataqlarının istismarı gücləndirilib. Zəngəzur qəzasının zəbt edilməsində əsas məqsədlərdən biri də məhz qiymətli filiz faydalı qazıntı yataqlarının ələ keçirilməsi idi.

Nüvədi kəndinin ətrafındakı "Sığıran yeri", "Qarağanlıq", "Buğda düzü", "Əyri dərə", "Canbəki", "Əngizeyid dərəsi", "Ağalar düzü", "Məmmədəmin kahası", "Quzey yamacı", "Köç çayı", Sələnc çayının dərəsindəki "Ülə düzü"...adlı sahələr 1906-cı ilin iyul-avqust aylarında səngər-döyüş yerləri, soydaşlarımızın qətlə yetirildiyi məkanlar kimi tez-tez xatırlanırdı (kəndin yaşlı sakinləri Şeyda Süleyman qızının (1852-1942), Nənəş Kərbəlayı Babat qızının (1870-1962), Yunus Kərbəlayı Hüseyn oğlunun (1880-1952), Əli Həzi oğlunun (1899-1992), Sultanəli Kərbalayı Əhmədalı oğlunun (1882-1972)...söhbətlərində/xatirələrində).

1906-cı ildə əsasən Arşak Qafavyanın (1858-1919, "erməni müdafiəçiləri " silahlı təşkilatının üzvü) və Amazasp Srvantsyanın (1873-1921) başçılıq etdiyi, bölgədə yuva qurmuş daşnak quldur dəstələri (ilin ortalarında) Mehri və Qapan nahiyələrinin bütünlüklə Türk-Müsəlman kəndlərini (Qarabağ və Ordubad qəzaları arasında yerləşən) mühasirəyə almış, yerlə-yeksan/qarət etmiş-yandırmış, əhalisini isə amansızlıqla qətlə yetirmişlər, sağ qalanların bir hissəsi isə qonşu Ordubad və Cavanşir qəzalarının kəndlərinə sığınmışlar.

1906-cı ilin iyul-avqust aylarında Oxçuçay çayı hövzəsindəki kəndlərə (Karxana, Lov, Qatar, Xələc, Saldaşlı, İncevar...) edilən hücumlara rəhbərlik Qapan şəhərindən 1 km şərqdə yerləşən Barabatum və Çəkədək kəndlərindəki kilsə/daşnak qərargahından edilmişdir. Döyüş mövqelərində üstünlüyü ələ alan (Oğlanlıca silsiləsinin Gilətağ çayının sol hissəsi boyunca uzanan dağlarında hündürlükləri tutmaqla) hay-daşnak silahlıları Şimali Qafqazın kazak dəstələri ilə birləşərək Qatar, Oxçu, Şabadin, Armudlu... kəndini odlara qalamış, əhalisini güllələbaran etmişlər, az sayda canlarını xilas edənlər isə qonşu Gilətağ kəndinə keçə bilmişlər (bu faciələr şahidlərin dili ilə M.S.Ordubadinin "Qanlı sənələr" əsərində yazılmışdır).

Qeyd etmək lazımdır ki, Mehri və Qapan nahiyələrində hay-daşnak silahlı və rus-kazak süvari dəstələrinə qarşı yerli özünümüdafiə qüvvələri qəhrəmanlıqla müqavimət göstərə bilmişdir. Onların köməkliyinə Ordubad nahiyəsinin və "Difai" partiyasının 800 nəfərlik silahlıları Saqqarsu dağında mövqe tutaraq düşmənə qarşı cəbhə xətti yaratmışlar. Lakin, 1906-cı ilin avqust ay;n;n 1-də Oxçu dərəsindəki Qars kəndi yer üzündən yox olmuşdur. 9-12 avqust günlərində isə Oxçu və Şabadin kəndlərinə hücumlarda məğlub olan düşmən Gecalan/Qacaran kəndinə çəkilərək ətrafdakı yüksəklikləri tutduqdan sonra avqust ayının 14-də Saqqarsu kəndinin camaatına görünməmiş qətliamlar yaşatmışlar.

Ümumiyyətlə, Gəncə/Yelizavetpol quberniyasının Zəngəzur qəzasının 5-ci bölməsinə aid olan Mehri nahiyəsinin (1867-ci ilədək Ordubad qəzasının tərkibində idi) 26 kəndi (14-ü Türk-Müsəlman, 12-si "hay mənşəli", "Qafqaz təqvimi"nin 1912-ci il məlumatına görə Mehri nahiyəsində 1713 nəfər kökənli, yerli xalqların camaatı, 1378 nəfər hay yaşayıb) olub və 1905-1906-cı illər ərzində 300 nəfərə qədər Türk-Müsəlman kökənli sakin dini, irqi və dil mənsubiyyətinə görə qətliam qurbanı olmuşdur...

1905-1906-cı illərdə Zəngəzur qəzasının soyqırım faciələrinin siyasi-hərbi təhlilləri, elmi-nəzəri qiymətləndirilməsi və beynəlxalq-ictimai təsir dairəsinin öyrənilməsi sübut etmişdir ki, hay kilsəsinin rəhbərliyi altında fəaliyyət göstərən "Armenakan", "Qnçakyan" və "Daşnakstyun" çar Rusiyasında inqilabi çevriliş ərəfəsinin (1905-1907-ci illərin burjua-demokratik inqilabının) əlverişli siyasi-hərbi şəraitindən istifadə etməklə mənfur niyyətlərinə (Türk-Müsəlman dünyasının süqutu/parçalanması, milli genofondunun məhv edilməsi...) çatmaq üçün 1905-1906-cı illərdə regional maraqlarına uyğun olaraq, eləcə də, I Dünya müharibəsinin (1914-1918-ci illər) beynəlxalq-siyasi və hərbi şərtlərindən yararlanaraq "Ermənistan Respublikası"nın yaradılması naminə 1918-1920-ci illərdə Bütöv Azərbaycan coğrafiyasında, o cümlədən Zəngəzur bölgəsində qırğınlara, faciələrə...imza atmışlar...

1918-1920-ci illərin Zəngəzur soyqırımı barədə növbəti yazılarda...

*(Ardı var)*

***R.S. 1905-1906-cı illərdə Zəngəzur qəzasında hay kilsəsi və ibtidai insan/hay sürüsünün quldur dəstələrinin Türk-Müsəlman əhalisinə qarşı soyqırımı-qətliamları barədə həmçinin hay dilində nəşr edilən "Nor-Xosk" ("Yeni söz"), eləcə də Tiflis şəhərində çıxan "Qafqaz", "Qafqaz təqvimi", Bakı şəhərində nəşr edilən "Kaspı", haydilli "Fəhlə səsi"("Banvorn dzayn"), "Hücum" (Qrox"), "Səhifə" ("Trutsik")...qəzetlərində də yazılmışdır.***

***R.S.S. Mehri nahiyəsinin Lök kəndini hay kilsəsi-"Vartanidzor", Əlidərəsi kəndini-"Alidzor", Qapan nahiyəsinin Tatlı kəndini- "Tatev", Armudlu kəndini-"Danzaver"...adlandırıb.***

***(Yazının hazırlanmasında həm də Mehri nahiyəsinin Əlidərəsi kənd sakini Həsən İbiş oğlu Mirzəyevin (1931), Nüvədi kənd sakinləri Nargilə İmaməli qızının (1929), Balakişi Balakişi oğlu Həsənovun (1939)...məlumatlarından istifadə olunmuşdur).***